# Azərbaycan tarixi fənninin tədrisində bacarıq və vərdişlərin formalaşdırılmasının vəzifələri və əhəmiyyəti

**Ədalət Allahverdiyev**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** aedalet91@gmail.com

**Rəyçilər:** ped.ü.e.d., prof. M.M. Əmirov,
t.ü.f.d, dos., Q.İ. Bəşirov

**Açar sözlər:** bilik, bacarıq, vərdiş, tarix, metodika, təfəkkür
**Ключевые слова:** знания, умения, привычку, дата, методика, мышление
**Key words:** knowledge, abilities, habits, history, method, thinking

Təhsilin dünya standartları səviyyəsində qurulmasına, dünya təhsil sisteminə inteqrasiya edilməsinə zəmin yaradan tədbirlər kompleksi həyata keçirilmişdir. Buna uyğun olaraq son illər təhsilin məzmununda da ciddi dəyişikliklər baş vermişdir. Belə ki, şagirdlərdə bilik, bacarıq və vərdişlər formalaşdırmaq, onları həyati bacarıqlar əldə etməyə, bir sözlə fəal və məhsuldar əməyə hazırlamaq ön plana çəkilmişdir. Tarixin öyrənilməsi çox aktual məsələdir. Demək olar ki, dünyanın bütün ölkələrində məktəblərdə tarix çoxdan öyrənilir, lakin müxtəlif yerlərdə tədris məqsədlərinin müxtəlifliyi ilə fərqlənir.

Bir tərəfdən, zorla qəbul etdirilən ideologiya zəminində məktəblilərə hazır tərif və ifadələr öyrədilir ki, bu da "qanuna tabe" vətəndaş yetişdirməyə imkan verir, digər tərəfdən isə məktəblilərə müxtəlif fikir və konsepsiyaları sərbəst təhlil etmək, başqalarının fikirlərinə hörmət etmək, eləcə də, sərbəst nəticə çıxarmaq və kollektivdə işləmək kimi bacarıq və vərdişlər aşılanır ki, bu da yeni demokratik cəmiyyətdə tam dolğun həyat sürməyə qabil yeni şəxsiyyətlər yetişdirməyə imkan verir.

Metodiki ədəbiyyatda bacarığa "şüurlu və dəqiq hərəkətlərə (əqli və təcrübi) hazırlıq dərəcəsi və ya dəyişkən şəraitdə bilik və vərdişlər əsasında fəaliyyət məqsədinə nail olmaq bacarığı" kimi tərif verilir [1, 156].

Şagirdlərdə bacarıq formalaşdırmaq üçün bir sıra əqli əməliyyatlardan və praktiki hərəkətlərdən ibarət olan tədris-idrak fəaliyyətinin müəyyən üsulunun onlar tərəfindən mənimsənilməsinə kömək etmək lazımdır. Fəaliyyət üsulları yalnız bacarıqda deyil, həm də vərdişlərdə reallaşır.

Metodiki ədəbiyyatda vərdişlər köməkçi rol oynayan və mürəkkəb bacarıqların tərkibinə daxil olan avtomatlaşdırılmış hərəkətlər kimi nəzərdən keçirilir (misal üçün, rəvan oxuma, dərsliyin mündəricatı ilə iş, kataloqla davranış və sair). Digər ədəbiyyatda göstərilir ki, bacarıq fəaliyyətdə olan bilikdir, öyrənilənlərin təcrübəyə tətbiqi üsuluna yiyələnməyi nəzərdə tutur və qazanılmış bilikləri tətbiq edə bilmək səriştəsidir [1, 156].

Digər bir ədəbiyyatda deyilir ki, "bacarıq dedikdə qarşıya çıxan problemləri həll etmək üsullarına yiyələnməkdə ən yüksək pillə başa düşülür. Bacarığa şüurlu və dəqiq fəaliyyətə hazır olmaq kimi tərif verənlər də var. Bacarıq vərdişə nisbətən daha çox şüurlu olması ilə fərqlənir" [4, 92].

Yuxarıda sadalanan təriflərin məzmununa nüfuz etdikdə aydın olur ki, hər üç tərəfin məzmununda və quruluşunda azacıq fərq olmasına baxmayaraq mahiyyət etibarı ilə eynidir.

Ümumi nəticəyə gələrək aşağıdakı tərifi daha məqbul hesab etmək olar.

“Vərdişlər - praktik bacarıqlardır ki, insan fəaliyyət prosesində onları qismən avtomatlaşan hərəkətləri ilə, iş üsullarını çətinlik çəkmədən, xüsusi iradə səyi və şüurun xüsusi nəzarəti olmadan və tərəddüdsüz yerinə yetirir”.

Bacarıq və vərdişlərin formalaşdırılması üzrə işə başlayarkən onların məzmununun nədən ibarət olduğunu müəyyənləşdirmək lazımdır. Bununla, ilk növbədə, didaktlar və psixoloqlar məşğul olurlar. Bacarıq və vərdişlərin formalaşdırılmasına, habelə onların nisbətinə dair iki nöqteyi-nəzər mövcuddur.

Birinci nöqteyi nəzər bacarıqları hər hansısa fəaliyyət üsuluna şüurlu şəkildə sahib olmaq vasitəsi kimi xarakterizə edir. Vərdiş - avtomatlaşma dərəcəsinə çatmış bacarıqdır. Bacarıq tədricən vərdişə keçir. Deməli, tədris prosesində eyni zamanda bacarıq və müvafiq vərdiş spesifik növü olan dərsliklə işin təşkili (əsas fikri tutmaq, anlayışların mahiyyətini izah etmək, materialı təhlil etmək və sistemləşdirmək, plan tərtib etmək, sxemləri, diaqramları və digər sxematik materialları oxumaq və s.). İkinci nöqteyi-nəzər qulaq asmaq yolu ilə mənimsənilən mətnlərlə və audiovizual mənbələrlə iş (müəllimin mühazirəsini, şagirdin məruzəsini dinləmək, radio və televiziya vasitəsilə ötürülən informasiyanı mənimsəmək və s.).

Didaktika və psixologiya elmində şagirdlərin əsas bacarıq və vərdişlərinin bir neçə təsnifatı vardır. Şagirdlərin ümumi tədris bacarıq və vərdişlərinin inkişafına dair tövsiyələr də hazırlanmışdır. Bütün tədris bacarıq və vərdişləri üç qrupda ümumiləşdirilib.

1. Tədris əməyinin təşkili (iş yerinin hazırlanması, əqli əmək gigiyenasına əməl olunması) və tədris fəaliyyətinin strukturuna sahib olma. Dərs tapşırıqlarının dərk edilməsi,müstəqil işlərin qoyuluşu kimi şagirdlərdə bacarıqların formalaşdırılmasına, habelə tapşırığın yerinə yetirilməsinin planlaşdırılması.

2. Kitabla və tədris xarakterli informasiyanın digər mənbələri ilə iş (oxuma prosesinə, yəni məzmununa görə müxtəlif olan mətnlərin oxunulması. Oxuma texnikasının, tempinə, məqsədinə görə müəyyənləşdirmək, habelə informasiyanı götürərək sistemləşdirmək bacarığına yiyələnmək).

3. Şagirdlərin şifahi və yazılı nitq mədəniyyətinin xarakteristikası (müxtəlif xarakterli suallara cavab vermək, mətni yenidən danışmaq, materialı əlaqəli şəkildə şərh etmək, məlumata rəy bildirmək və s.)

Y.K. Babanskinin irəli sürdüyü bacarıqların təsnifatının əsasını tədris fəaliyyətinin strukturları və biliklərin mənimsənilməsi prosesi təşkil etmişdir. O, tapşırıqları nəzərdə tutmaq və öz fəaliyyətini səmərəli planlaşdırmaq, bunun üçün əlverişli şəraitlər yaratmaq (gün rejimi, iş yerinin gigiyenası) məqsədilə tədris təşkilatı bacarıqlarının; tədris - informasiya bacarıqlarını (kitabla, məlumat kitabçası ilə, biblioqrafiya ilə iş); tədris - intellektual bacarıqlarını (fəaliyyətin motivasiyası, informasiyanın qəbul edilməsi, yadda saxlanılması, əks etdirilməsi, problemli məsələlərin həlli, tapşırıqların yerinə yetirilməsi, özünə nəzarətin həyata keçirilməsi). Bu təsnifatda bacarıqların siyahısı fəaliyyətin strukturuna və biliklərin şagirdlər tərəfindən mənimsənilməsi prosesinə uyğundur.

İ.Y. Lerner bacarıqları hərəkət üsuluna görə təşkilati (öz fəaliyyətini planlaşdırmaq), praktiki (plan, məruzə və sair tərtib etmək bacarığı) və intellektual (təfəkkürün inkişaf etdirilməsi) bacarıqlara ayırır. Tarixin predmetinə münasibətdə buraya tarixçilik prinsipinə riayət etmək, ictimai hadisələrin təhlilinə obyektiv yanaşma tətbiq etmək və tarixi materialı ümumiləşdirmək bacarıqları aiddir.

L.S. Vıqotski bilik, bacarıq və vərdişlərə yiyələnmək və ümumi keyfiyyətlərə, qabiliyyətlərə (mücərrədləşdirmə, ümumiləşdirmə, ixtiyarilik) yiyələnməyin mümkün olduğunu aşkara çıxarmışdır. O, birinci cəhəti (bilik, bacarıq və vərdişlərə yiyələnməni) təlim

(öyrənmə), ikincini isə inkişaf adlandırmışdır. Onun fikrincə təlimdə mənimsəmənin əsas predmetini bilik və mədəniyyət haqqında tarixi təcrübə təşkil edir [3, 568].

Beləliklə, pedaqoji sahədə, bacarıqlar müxtəlif əsaslarla təsnif olunurlar. Ümumi və xüsusi bacarıqlar mövcuddur. Tədris prosesində tarix müəllimi bu və ya digər bacarıqlarla işləməli, lakin spesifik bacarıqlara, yəni tarixi prosesin mahiyyətini dərk etməyə imkan verən intellektual və praktiki bacarıqlara daha çox diqqət yetirməlidir.

Tədris materialını qavramaq və anlamaq hələ onu tam mənimsəmək üçün kifayət deyil. Bundan ötrü əlavə addımlar atılır, tədris materialının şagirdlər tərəfindən əsaslı dərk olunması təşkil edilir. Bu məqsədlə müəllim şagirdlərin şüurunu hərəkətə gətirir, onları düşünməyə, fikir yürütməyə vadar edir; onların diqqətini öyrənilən hadisələrdə və cisimlərdə səbəb-nəticə əlaqələrinə yönəldir. Təlimin bu mərhələsində uşaqlar müəllimin rəhbərliyi ilə müəyyən əqli nəticələr çıxarır, öz fikirlərinin doğruluğunu isbat etməyə meyl göstərirlər, onlarda əqidə ünsürləri yaranır, öyrəndikləri hadisələrə müəyyən mövqedən yanaşmağa başlayırlar. Təlimin bu mərhələsində şagirdlər idrak əməliyyatları olan müqayisəyə, təhlilə, ümumiləşdirməyə, mücərrədləşdirməyə daha çox müraciət etməli olurlar. Bu səbəbdən də, şagirdlərin bilik və bacarıqları intensiv şəkildə formalaşır. Şagirdlər öz bacarıqlarını işə salırlar, bilik ehtiyatından vəziyyətin tələb etdiyi bilikləri seçib istifadə edirlər [2, 286].

Bilikləri qavramaq, anlamaq və möhkəmləndirməklə iş bitmir. Əsas məqsəd praktiki vəzifələri həll etmək üçün alınmış bilikləri tətbiq etməkdən ibarətdir.

**Məqalənin aktuallığı.** Müasir dövrdə Avropa Təhsil sisteminə inteqrasiya, kurikulum təhsil sisteminə keçid, habelə təlimdə müasir təlim metodlarının tətbiqi, habelə fəal/interaktiv təlimin üsul və texnikalarından istifadə edilməsi, elmin son nailiyyətlərinə əsaslanan yeni texnologiyadan və onun texniki aparatlarının tədris prosesinə cəlb edilməsi və s. səbəblərə əsaslanaraq deyə bilərik ki, bacarıq və vərdişlərin formalaşdırılması yollarından istifadə üzrə işin sistemini yaratmağı, tədris zamanı yeni forma, metod və üsullardan istifadəni zəruri hala gətirmişdir.

**Məqalənin elmi yeniliyi.** İlk dəfə VI-XI siniflərində Azərbaycan tarixi kursunun tədrisində bacarıq və vərdişlərdən istifadə üzrə işin imkanları araşdırılmış, didaktik, pedaqoji və metodiki əsasları təqdim edilmiş, Azərbaycan tarixi fənninin tədrisində bacarıq və vərdişlərin yeni pedaqoji texnologiyalar, interaktiv metodlarla təşkili yolları müəyyənləşdirilmiş, Azərbaycan tarixi kursunun tədrisində bacarıq və vərdişlərdən istifadə üzrə işin sistemi yaradılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatın nəticələrindən orta ümumtəhsil məktəblərində Azərbaycan tarixi fənninin tədrisi ilə yanaşı, digər fənlərin tədrisi prosesində təlimin səmərəliliyinin artırılmasında, metodik vəsaitlərin hazırlanmasında, ali təhsil müəssisələrində bakalavr səviyyəsində müəllim hazırlığında, habelə ixtisasartırma kurslarında istifadə etmək olar.

## Ədəbiyyat

1. Əmirov M.M. Ümumtəhsil məktəblərində tarixin fəal/interaktiv təlimi metodikası. Bakı: ADPU-nun nəşri, 2014
2. C.Ə. Feyziyev, F.N. İbrahimov, S.R. Bədiyev. Didaktika Bakı: Mütərcim, 2011
3. Psixologiya / S.İ. Seyidov və M.Ə. Həmzəyevin elmi red. ilə. Bakı, 2007
4. İskəndərov T. Tarixin tədrisi metodikası Mühazirə mətnləri. Bakı, 2012

**А. Аллахвердиев**

## История Азербайджана в преподавании предмета умений и навыков задачи формирования и значение

### Резюме

Успех зависит от условий для становления школьников навыки работы много. Учитель истории, в первую очередь, должен выявить, какие ссылки на отдельные у школьников навыки слабо развиты или нет ни каких - может, установившиеся знаний и навыков в той или иной если бы он раньше в классе. Впоследствии его ученики в отдельных строится на основе различных дифференциальных подход к школьникам.

**A. Allahverdiyev**

## Azerbaijan history subjects in the teaching of skills and habits the functions and importance of forming

### Summary

Students success depends on many conditions of work for the development of skills and habits. History teacher in the first place, he should discover this and other classes in the generated knowledge and skills in students the skills they developed or not, referring to what the county could be some weak - what previously would. Later on this basis differential approach of some students of different students group is based.

**Redaksiyaya daxil olub:** 06.02.2018